# Yeni Azərbaycan Partiyası milli iradənin və hərtərəfli tərəqqinin siyasi lokomotividir




***Yeni Azərbaycan Partiyası 29 illik fəaliyyəti dövründə ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi ideyalara əsaslanaraq çox böyük və şərəfli yol keçib. Prezident İlham Əliyevin dediyi kimi: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".***

Təkcə Azərbaycanın deyil, eyni zamanda, Cənubi Qafqazın da ən böyük siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqillik dövrü siyasi tarixində yerini və rolunu dəyərləndirmək üçün onun yarandığı mürəkkəb tarixi şəraitə və keçdiyi öyünclü yola nəzər salmaq lazımdır. Əvvəla, belə bir həqiqəti yada salaq ki, YAP ictimai-siyasi zərurətdən yaranan ümumxalq partiyasıdır. O zaman–ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hökm sürən xaos, anarxiya və hərc-mərclik Azərbaycanın yenicə qazandığı müstəqilliyini itirmək təhlükəsi yaratmışdı.

O dövrdə xalqı meydanlarda şirin vədlərlə aldadaraq toplayan, hakimiyyəti zorla ələ keçirmiş səriştəsiz qüvvələr ölkəni dərin siyasi böhrandan xilas etmək iqtidarında deyildi. Bu hadisənin fonunda ölkəmizin üzləşdiyi siyasi, iqtisadi böhran və tənəzzül meyilləri, həmçinin mənəvi-ideoloji kataklizmlər Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri etdi. Belə bir şəraitdə 91 nəfər ziyalı yeni yaranacaq Yeni Azərbaycan Partiyasına rəhbərlik etməyə razılıq verməsi üçün 1992-ci il oktyabrın 16-da ulu öndər Heydər Əliyevə müraciət etdilər.

Ümummilli lider Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. 1992-ci il noyabrın 21-də Naxçıvanda çox çətin bir şəraitdə keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyasının yaradılması elan edildi və ulu öndər Heydər Əliyev partiyanın sədri seçildi. Dünya miqyaslı siyasət və dövlət xadimi Heydər Əliyevin nadir şəxsiyyəti və azərbaycançılıq ideyaları ətrafında formalaşan Yeni Azərbaycan Partiyası qısa müddətdə təşkilatlandı və tarixi fəlakət günlərində xalqın dəstəyi və öz liderinin xilaskarlıq missiyasına dəstək verərək 1993-cü ildə hakimiyyətə gəldi.

Yarandığı gündən YAP-ın ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və uğurla tətbiq edilən əsas proqram məramı Azərbaycanın dövlət müstəqilliyinin qorunub möhkəmləndirməkdən, ərazi bütövlüyünü təmin etməkdən, demokratik, hüquqi, dünyəvi cəmiyyət qurmaqdan, ictimai-siyasi sabitlik, milli həmrəylik, güclü və sosialyönümlü iqtisadiyyat yaratmaqdan ibarət olub. Partiya ötən 29 ildə öz amal və məqsədlərinə uyğun fəaliyyət göstərib.

Yeni Azərbaycan Partiyası qarşısına qoyduğu vəzifələri öz fəallarının nümunəvi fəaliyyəti və xalqın geniş dairələrinin rəğbət və dəstəyi şəraitində gerçəkləşdirməyə nail olan mobil bir siyasi qüvvədir. 700 mindən çox üzvü olan YAP bu müddətdə ölkədə keçirilən prezident, parlament və bələdiyyə seçkilərində inamlı qələbələr qazanıb. Eyni zamanda, ötən müddət ərzində YAP-ın keçirdiyi qurultaylarda (1999, 2001, 2005, 2008, 2013, 2018, 2021) qəbul etdiyi tarixi qərarlar ölkəmizin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından müstəsna rol oynayıb. Yeni Azərbaycan Partiyasının əldə etdiyi nailiyyətlər silsilə xarakter daşıyır və bütün bu uğurların ciddi tarixi və siyasi əsasları mövcuddur.

Qətiyyətlə demək lazımdır ki, YAP ulu öndər Heydər Əliyevin ideyaları əsasında irəliləyərək müstəqil dövlət quruculuğu naminə yüksəliş yolu keçib. Azərbaycan cəmiyyətinin avanqard siyasi qüvvəsi kimi Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında duran vəzifələrin yerinə yetirilməsinə özünün layiqli töhfələrini verib və bu məram bu gün də uğurla gerçəkləşdirilir. YAP öz səmərəli fəaliyyəti ilə etibarlı gələcəyinin təmin olunmasında da aparıcı rol oynayır.

Bu baxımdan Yeni Azərbaycan Partiyası milli iradəni təmsil edən, siyasi sistemin monolit gücü və avanqard siyasi institutdur. Başqa sözlə, YAP sahib olduğu resurslara, ictimai-siyasi nüfuzuna, özünün fəaliyyət mexanizminin səmərəlilik səviyyəsinə və siyasi sistemdəki öncül yerinə görə Azərbaycanın siyasi palitrasının ən güclü və nüfuzlu partiyasıdır. YAP, eyni zamanda, ölkəmizdə siyasi mədəniyyətin və demokratik sistemin formalaşmasına, daim təkmilləşməsinə həlledici təsir göstərən ümumxalq partiyasıdır.

Yeni Azərbaycan Partiyası həm Avropanın, həm də Asiyanın bir çox ölkələrinin aparıcı siyasi partiyaları ilə ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirib, partiyalar səviyyəsində beynəlxalq qurumlarda uğurla təmsil olunub. Eyni zamanda, partiyamızın çoxşaxəli beynəlxalq əlaqələrini uğurla davam etdirməsi nəticəsində Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılıb.

Özündə yüksək intellektual potensialı birləşdirən YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və bu gün partiyanın üzvlərinin 40 faizi gənclərdən ibarətdir. Ulu öndərin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev və onun rəhbərliyi ilə YAP-ın fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi, bu gün də Azərbaycan gənclərinin hərtərəfli inkişafı, ölkənin ictimai-siyasi, sosial-mədəni həyatındakı rolunun artması, idarəçilik strukturlarında geniş təmsil olunması xüsusi diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri möhtərəm İlham Əliyev partiyanın yaradılmasının 25 illiyinə həsr edilmiş təntənəli yubiley mərasimindəki çıxışında bildirmişdir: "Bu gün partiyamızın fəaliyyəti, ideyaları, apardığı siyasət gənc nəsil üçün də cəlbedicidir və bu, çox müsbət haldır. Bu onu göstərir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq və partiyanın təbliğ və bəyan etdiyi prinsiplər bu gün xalq tərəfindən tam dəstəklənir. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasıdır. Əminəm ki, növbəti illərdə də partiyamız liderlik qabiliyyətini özündə saxlayacaqdır. Bu gün partiyamız Cənubi Qafqazın ən böyük siyasi qüvvəsidir".

YAP-nın siyasi kursunun Partiyanın sədri, Ali Baş Komandan İlham Əliyev tərəfindən düzgün və uğurla davam etdirilməsi ölkəmizin siyasi, hərbi qüdrətinin artmasında beynəlxalq aləmdəki nüfuzumuzun möhkəmləndirilməsində və ərazi bütövlüyümüzün bərpa edilməsində parlaq əksini tapmışdır.

Yeni Azərbaycan Partiyası xalqımıza qazandırdığı qələbələrlə milli maraqların və hərtərəfli tərəqqinin siyasi lokomotivi olduğunu dönə-dönə sübut etmişdir. Partiyamızın lideri olan Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə rəşadətli ordumuz ötən ilin payızında düşmənin bir neçə ilə ələ keçirdiyi və 30 il işğal altında saxladığı torpaqlarımızı cəmi 44 gündə azad etdi. Təcavüzkar Ermənistanın quduz hərbi birləşmələri ildırım sürətilə darmadağın edildi. Məhz bunun nəticəsidir ki, son 28 ildə ilk dəfə olaraq müstəqilliyimizin bərpasının ildönümünü ərazi bütövlüyünü təmin etmiş qalib xalq olaraq qeyd etdik.

Bu qələbədə payı olanlar arasında Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin əməkdaşları da var. Vətən müharibəsində 226 meliorator torpaqlarımızın azadlığı uğrunda şücayət göstərib. Onlardan 17 nəfəri yaralanıb, 3 nəfəri isə qəhrəmancasına şəhid olub. Döyüşlərdə qəhrəmanlıq göstərən 49 nəfər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən mükafata layiq görülüb. Vətən müharibəsi iştirakçısı olan melioratorlardan 49 nəfəri ümumilikdə 66 medal və fəxri fərmanla mükafatlandırılıb.

Hazırda ölkə başçısının qətiyyətli siyasəti sayəsində işğaldan azad olunmuş ərazilərdə quruculuq və bərpa işləri böyük vüsət almışdır. Bununla əlaqədar olaraq, bütün sahələrdə olduğu kimi Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin də qarşısında mühüm vəzifələr durur. Bu vəzifələr Prezident İlham Əliyevin 5 aprel 2021-ci il tarixində Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nə sədr vəzifəsinə təyin edərkən verdiyi proqram səciyyəli tövsiyyə və tapşırıqlarda öz əksini tapmışdır. Ölkə başçısı öz tövsiyyələrində bildirdi ki, meliorativ tədbirlər hər bir ölkə üçün xüsusi əhəmiyyət daşıyır, su anbarlarının, kanalların tikintisi infrastruktur layihələr arasında həmişə prioritet yerdə olub və bundan sonra da belə olacaq. Bütün bu işlərlə bərabər, suyun səmərəli istifadə də günün önəmli məsələsidir.

Vətən müharibəsindəki qələbəmiz ölkəmizin, bütövlükdə regionun inkişafında yeni dövr açıb. Melioratorlar da yeni şəraitdə daha təşəbbüskar və səmərəli fəaliyyət göstərməyin zəruriliyini dərindən anlayırlar. Respublika Prezidentinin imzaladığı 2020-ci il 27 iyun tarixli sərəncama əsasən, "Su ehtiyatlarından səmərəli istifadə edilməsinə dair 2020-2022-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir. Burada nəzərdə tutulan tədbirlərin reallaşdırılması kənd təsərrüfatında sudan davamlı istifadənin təmin edilməsində mühüm rol oynayacaqdır. Tədbirlər planından irəli gələn vəzifələrin həyata keçirilməsində respublikamızın melioratorları, eləcə də Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC YAP ərazi təşkilatının üzvləri də fəal iştirak edirlər.

27 min 392 nəfərdən çox üzvü olan YAP Səbail rayon təşkilatı tərkibində fəaliyyət göstərən melioratorların ərazi özəyi sıralarında öz işini dərindən bilən, məsuliyyətli və müxtəlif nəsilləri təmsil edən mütəxəssisləri və rəhbər kadrları birləşdirir. YAP-çı melioratorlar partriyanın yaradıcısı ulu öndər Heydər Əliyevin ideyalarına, partiyamızın sədri İlham Əliyevin siyasi kursuna və ümumxalq həmrəyliyinə sadiqliklərini daimi nümayiş etdirirlər. Bütövlükdə, YAP Səbail rayon təşkilatı rayonun və respublikamızın ictimai-siyasi həyatında göstərdiyi fəallığı ilə diqqəti cəlb edir.

Bu il dekabrın 10-da hər YAP ərazi təşkilatının hesabat-seçki yığıncağı keçirildi. Yığıncaqda ərazi təşkilatının hesabatı dinlənildi, qarşıda duran vəzifələr geniş müzakirə edildi və təşkilati məsələlərə baxıldı. Müzakirələrdə ərazi təşkilatının partiya sıralarının möhkəmləndirilməsi və vəzifə öhdəliklərinin uğurla yerinə yetirilməsi ilə yanaşı, respublikamızın ictimai-siyasi həyatında daha da fəal iştirak etmək üçün məqsədyönlü tədbirlərin görülməsi qərara alındı.

Bugünlərdə xalqımız Prezident İlham Əliyevin 60 illik yubileyini sonsuz ehtiram və böyük qədirbilənlik duyğuları ilə qarşılayır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin bütün kollektivi və YAP ərazi təşkilatının üzvləri də sevimli Prezidentimiz İlham Əliyevi 60 illik yubileyi münasibəti ilə səmimi-qəlbdən təbrik edir, müzəffər Ali Baş Komandanımıza uzun ömür, cansağlığı, ailə səadəti və rəhbərlik etdiyi bütün cəbhələrdə yeni qələbələr arzulayır. Biz melioratorlar bu əlamətdar tarixin təntənəsinə qoşularaq müstəqil dövlətimizin başçısının və partiyamızın sədrinin apardığı uğurlu daxili və xarici siyasətə bundan sonra da əməli işimizlə dəstək olacağımızı bildiririk.

***Saleh SADIQOV,***
***YAP Səbail rayon təşkilatı meliorator ərazi təşkilatının sədri, Əməkdar mühəndis***